# Nizamişünalıq şöbəsi

*Nizamişünaslıq şöbəsinin əməkdaşları* 2018-ci ildə 44 elmi məqalə hazırlayıb, onlardan 17-si elmi məcmuələrdə çap edilib.

*Şöbənin müdiri, AMEA-nın müxbir üzvü Nüşabə Araslı* "Nizami Gəncəvinin həyatı və yaradıcılığı" problem-mövzusu üzrə "Nizami Gəncəvinin sələfləri: a)Ərəbdilli Azərbaycan ədəbiyyatı, b)Nizamiyəqədərki farsdilli poeziya" mövzusunda elmi işi yerinə yetirib. O, "Nizami Gəncəvi və klassik türk ədəbiyyatı" monoqrafiyasını çapa hazırlayıb. Əfzələddin Xaqaninin "Töhfətül İraqeyn" əsərini Azərbaycan ədəbiyyatı tarixinin II cildi üçün çapa təqdim edib.

*Aparıcı elmi işçi, f.ü.f.d. Zəhra Allahverdiyeva* eyni problem-mövzu üzrə "Epik şeirin Nizamiyəqədərki inkişaf mərhələləri (Nizami-Firdovsi, Gürgani, Sənai və başqaları)" məqaləsində problemin tədqiq tarixinə diqqət yetirib, ədəbi əlaqələrin nəzəri aspektlərini tədqiqata cəlb edib, Nizami poemaları Firdovsinin "Şahnamə, F.Gürganinin "Vis və Ramin", Sənainin "Həqiqət-ül-həqayiq" əsərləri ilə müqayisədə qiymətləndirilib.

*Aparıcı elmi işçi, f.ü.f.d. Vəfa Hacıyeva* eyni problem üzrə "Nizami Gəncəvinin dünyagörüşünün dini, fəlsəfi və irfani aspektləri" mövzusunu "Xosrov və Şirin" poemasının təhlili əsasında öyrənib, "Yaradanın təkliyinin vəsfi" adlı giriş hissəsi Quran təfsirləri, hədislər və İmam Qəzzalinin dini-fəlsəfi traktatları əsasında təhlil edilib, eyni zamanda "Xosrov və Şirin" poemasının bədii dilinin semantik-üslubi təşkilinin özəlliklərindən bəhs edilib.

*Aparıcı elmi işçi, f.ü.f.d. Yelena Teyer* Nizaminin "Leyli və Məcnun" poemasının rus dilinə bədii və filoloji tərcüməsinin müqayisəli təhlili" mövzusunda araşdırma aparıb. Tədqiqatda "Leyli və Məcnun" poemasının P.Antakolski, A.Stapostin, T.Stpeşneva və başqaları tərəfindən edilmiş tərcümələri müqayisə əsasında dəyərləndirilib. Araşdırma zamanı prof. Rüstəm Əliyev, prof. M.Əlizadənin rus və Azərbaycan dillərinə etdikləri sətri tərcümələrdən də faydalanıb.

*Aparıcı elmi işçi, f.ü.f.d. Təhminə Bədəlova* eyni problem üzrə "Nizami Gəncəvinin "Kəlilə və Dimnə", "Qobusnamə" və "Min bir gecə əsərlərinə müraciəti" mövzusunda tədqiqat işini yerinə yetirib.

*Şöbənin kiçik elmi işçisi Samirə Əliyeva* eyni problem üzrə "Nizami Gəncəvi lirikasının məzmun və ideya xüsusiyyətləri" mövzusunu araşdırmaya cəlb edib. Tədqiqat zamanı N.Gəncəvi divanının tədqiq tarixi, V.Dəstgerdinin "Gəncineyi-Gəncəvi" kitabı ilə S.Nəfisinin "Divan-e qəsaed-o qəzəliyyat-e həkim Nezami Gəncəvi" kitabları müqayisəyə gətirilib, şairin qəsidələri haqqında geniş məlumat verilib, elmi müddəalar əldə edilib.

Şöbə əməkdaşlarının hazırladığı, redaktoru akad. İsa Həbibbəyli olan "Nizami Gəncəvi" adlı məqalələr toplusu çapa hazırlanıb, habelə 18 məqalə isə çapdadır.

*Z.Abdullayeva, Y.Teyer, V.Hacıyeva, T.Bədəlova, S.Əliyeva* "Nizami mədəni irsinin müasir dövrdə interpretasiyası", ümummilli lider H.Əliyevin 95 illiyinə həsr edilmiş "Azərbaycanşünaslığın aktual problemləri", İran İslam Respublikasının Təbrizdə keçirilmiş "Nizami Gəncəvinin əziz xatirəsinə", "Xalqları qovuşduran Xəyyam Sözü" – Ö.Xəyyamın 970 illiyi, Rusiya Federativ Respublikasının Başqırdıstan Muxtar Respublikasının paytaxtı Ufada keçirilmiş "Rusiyada ənənəvi İslam və Zeynulla Rəsulov" mövzusunda beynəlxalq elmi konfranslarda, habelə, Qazaxıstanın Astana şəhərində Beynəlxalq Türk Akademiyasının təşkilatçılığı ilə "Böyük Çöl" III Humanitar Forumunda və başqa respublika konfranslarında məruzələr edib.

Şöbənin əməkdaşı *T.Bədəlova* dosent elmi adına layiq görülüb, V.Hacıyeva "Nizami Gəncəvi "Xəmsə"sində işlədilən xüsusi adların poetik-üslubi funksiyaları" adlı doktorluq dissertasiyasını müzakirə etdirib.

*AMEA-nın müxbir üzvü N.Araslı* prezident sərəncamı ilə "Fəxri Fərman; *dos.Z.Allahverdiyeva* "Qafqaz Media İctimai Birliyinin "Tomris" adlı diplomuna layiq görülüb.

Hazırladı:<br>
**Əlizadə Əsgərli**<br>
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat<br>
İnstitutunun elmi işlər üzrə direktor müavini,<br>
filologiya elmləri doktoru, professor<br>
**Nüşabə Araslı**<br>
Nizamişünaslıq şöbəsinin müdiri,<br>
AMEA-nın müxbir üzvü